Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Kirov Azərbaycanın çörəyini yedi, ömrü boyu da Qarabağı ermənilərə verməyin yolunda oldu...

**Azərbaycanın bolşevik işğalına məruz qalması nəticəsində xalqımız çox böyük faciələr yaşadı, ərazi itkiləri ilə üzləşdi. Tədqiqatçılar qeyd edirlər ki, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Xalq Komissarları Soveti yaradıldıqda yerlərə fövqəladə komissarlar da təyin olundu.**

Bu əsasla A.N.Karakozov (1890-1938) Dağlıq Qarabağ üzrə fövqəladə komissar təyin olundu. Azərbaycan Sovet hökuməti 1920-ci il 30 apreldə Ermənistan Respublikasına nota verdi və tələb etdi ki, Zəngəzurdan və Qarabağdan öz qoşunlarını çıxarsın. May ayında Qarabağda Sovet hakimiyyətinin qurulması elan olundu. Bu dövrdə Sovet Rusiyası Qafqazın sovetləşdirilməsi planını həyata keçirməkdə davam edir, yeni sovet dövlətlərinin sərhədlərinin müəyyənləşdirilməsi prinsiplərini irəli sürməklə mövcud və gələcək dövlətlərin fəaliyyətini nəzarət altına almağa cəhd göstərirdi. Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Qafqaz Bürosu Qafqaz cəbhəsi Hərbi-inqilabi şurasına 7 iyul tarixli təlimatında bu məsələyə toxunmuşdu.

Ermənistanda Sovet hakimiyyətinin qurulması ilə (1920, 29 noyabr) xarici sərhədlərlə yanaşı, sərhədlər daxilində də bölgülərin aparılması kəskinləşdi.

Azərbaycan İnqilab Komitəsinin Ermənistan Sovet Respublikasına 30 noyabr teleqramı və 1 dekabr Bəyannaməsində də Qarabağ və onun dağlıq hissəsindən bəhs olunurdu. Bu sənədlərin erməni tarixşünaslığında təhrif edilməsi əsas şəkildə sübut edilib. Bəyannamədə Dağlıq Qarabağın əməkçi kəndlilərinə tam öz müqəddəratını təyinetmə hüququ verildiyi elan edilirdi. Ermənistan İnqilab Komitəsi isə 28 dekabr Bəyannaməsində Naxçıvana iddiadan əl çəkdiyini bildirirdi. Lakin Ermənistan Qarabağı "əldən vermək" istəmirdi. Azərbaycan və Ermənistan arasında sərhədlərin müəyyənləşdirilməsi məsələsində Dağlıq Qarabağ məsələsi yenidən gündəmə gəldi. Tariximizdə qara ləkə kimi qalan bu dövrdə ölkəmizə rəhbərlik edən qeyri-azərbaycanlılar Azərbaycan Respublikasının ərazisinin parçalanmasına ciddi-cəhdlə çalışıblar. Xüsusən də torpaqlarımızın ermənilərə verilməsi üçün dəridən-qabıqdan çıxıblar. Dağlıq Qarabağın ermənilərə verilməsi üçün ölkəmizə rəhbərlik edən erməni Levon Mirzoyan və Ruben Rubenov olmaqla 5 nəfər qeyri-azərbaycanlının hamısı bu mövqeyi tutub.

1921-ci ildən 1926-cı ilə qədər Azərbaycanın birinci katibi olan Sergey Kirov bu məsələdə xüsusi canfəşanlıq edib. Kirova qədər də Dağlıq Qarabağın ermənilərə verilməsində maraqlı olan qüvvələr vardı. Kirovun Azərbaycanda hakimiyyət başına gəlməsi bu mənfur prosesin sürətlənməsinə səbəb oldu. Kirov da, ondan sonrakı rəhbərlər də Dağlıq Qarabağın Azərbaycanın tarixi ərazisi və ayrılmaz hissəsi olduğunu bilsələr də, bütün güclərini birləşdirib Dağlıq Qarabağı Azərbaycandan qoparmaq istəyirdilər.

Tarixçilər qeyd edirlər ki, məhz Kirovun rəhbərliyilə Dağlıq Qarabağın muxtariyyəti məsələsinə yeni münasibətin yarandığı ortaya çıxır. Bu təsadüfi deyildi. Kirov nəinki öz şəxsi mövqeyinin, hətta Qafqaz Bürosunun Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasını təsdiq etmək əvəzinə, ona məcburi muxtariyyət verilməsi haqqındakı qərarının və onun qısa müddətdə həyata keçirilməsi zərurətinin yanlış olduğunu yəqin etmişdi. Dağlıq Qarabağa muxtariyyət verilməsi dekretləşdiriləndən 4 ay keçdikdən sonra belə, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin 8 oktyabr 1923-cü ildə Kirovun sədrliyilə keçirilən iclasında Dağlıq Qarabağa muxtariyyət verilməsi haqqında qərarın əhali, xüsusilə türklər (azərbaycanlılar) arasında təbliğ olunmasının başa çatdırılmadığı etiraf olunurdu.

Kirov və onun dəstəsi bu məsələdə Azərbaycan türklərinin mövqeyinə elə də əhəmiyyət vermək istəmirdi, onun üçün əsas olaraq ermənilərin mövqeyi götürülürdü.

Tarixçilər vurğulayırlar ki, 1921-ci il iyul ayının 4-də İ.Stalinin iştirakı ilə keçirilən Qafqaz Bürosunun plenumundan düz 20 gün sonra Azərbaycan partiya təşkilatına rəhbər təyin edilən Sergey Kirov və respublikaya bilavasitə nəzarət edən Q.Orconikidzenin lehinə səs verməsi ilə belə bir qərar qəbul edildi: "Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibinə daxil edilsin, rəy sorğusu yalnız Dağlıq Qarabağda keçirilsin". Plenumun işində RKP MK-nın üzvü Stalin, Qafqaz Bürosunun üzvləri Orconikidze, Maxaradze, Nərimanov, Myasnikov, Kirov, Nazaretyan, Oraxelaşvili, Fiqatner iştirak edirdilər. İclasda gündəliyə daxil edilən məsələlər 4 istiqamətdə qoyulmuşdu: a) Qarabağı Azərbaycanın hüdudlarında saxlamaq (lehinə Nərimanov, Maxaradze, Nazaretyan; əleyhinə Orconikidze, Myasnikov, Kirov və Fiqatner); b) erməni və müsəlman əhalisinin iştirakı ilə bütün Qarabağda rəy sorğusu keçirmək (lehinə Nərimanov, Maxaradze); v) Qarabağın dağlıq hissəsini Ermənistanın tərkibinə daxil etmək (lehinə Orconikidze, Myasnikov, Fiqatner, Kirov); q) yalnız Dağlıq Qarabağda, yəni ermənilər arasında rəy sorğusu keçirmək (lehinə Orconikidze, Myasnikov, Fiqatner, Kirov, Nazaretyan). Protokolda belə bir qeyd var ki, Qarabağ məsələsi üzrə səsvermədə Oraxelaşvili iştirak etməyib. Məhz bu təkliflər səsə qoyulanda bundan az sonra Azərbaycan partiya təşkilatına rəhbərlik edəcək S.Kirov və dəfələrlə Leninə və Çiçerinə teleqramlarında Qarabağın dağı və aranı ilə birlikdə Azərbaycana məxsus olduğunu təkidlə yazan Q.Orconikidze sonuncu iki məsələnin, yəni Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsinin lehinə səs verdilər. Bu da, öz növbəsində, Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş qərarın qəbul olunmasına səbəb oldu. Burada maraqlı bir sual meydana çıxır: bir neçə ay əvvəl Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanmasında təkid edən, "Azərbaycanı Qarabağsız təsəvvür etməyən" Orconikidze və Kirovun 1921-ci ilin iyun və iyul aylarından başlayaraq Qarabağa münasibətdəki fikirlərində belə sərt dönüş nə ilə bağlı idi? Tarixçilər vurğulayırlar ki, Cənubi Qafqazda Moskvanın etibarlı nümayəndələri olaraq onların ikisinin də Qafqaz Bürosunun 4 iyul iclasında Azərbaycanın əleyhinə eyni mövqedən çıxış etməsi ancaq Mərkəzdən verilən gizli göstərişlə bağlı ola bilərdi.

AMEA-nın Tarix İnstitutundan məsələ ilə bağlı bildirilənə görə, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu və Təşkilat Bürosunun 26 sentyabrda bilavasitə Kirovun sədrliyilə keçirilən iclasında onun mövqeyinin əksinə dəyişdiyini görürük. İclasda iştirak edən 9 nəfərdən (Kirov, Nərimanov, Axundov, Qarayev, Əfəndiyev, Stukalov, Mirzoyan, Bünyadzadə, Hüseynov) 7-si Qafqaz Bürosundan Dağlıq Qarabağın ayrılması haqqında qərarın yenidən nəzərdən keçirilməsini xahiş etməyi qərara alır, yalnız 2 nəfər - Nərimanov və Bünyadzadə Qafqaz Bürosunun qərarının qısa müddətdə yerinə yetirilməsinə tərəfdar çıxır. Bu məsələ üzrə materiallar toplamaq üçün komissiya yaradılır. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Təşkilat Bürosu üzvlərinin iştirakı ilə Qarabağın məsul işçilərinin 21 oktyabr konfransına rəhbərlik edən Bünyadzadə də Kirovun mövqeyinə keçir. Belə ki, həmin iclasda Dağlıq Qarabağın muxtar vilayət kimi ayrılması xüsusi qeyddə məqsədəuyğun hesab olunmurdu.



Dağlıq Qarabağın muxtariyyətləşdirilməsi Zaqafqaziya Federasiyası və SSRİ-nin yaradılması prosesləri ilə paralel gedirdi. Buna baxmayaraq, onun həyata keçirilməsindəki problemlərə Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının irəli sürdüyü şəkildə yenidən baxılmadı. Əksinə, 1922-ci ilin fevralında Zaqafqaziya kommunist təşkilatlarının I qurultayında Orconikidzenin sədr seçildiyi Rusiya Kommunist (bolşeviklər) Partiyası Zaqafqaziya Ölkə Komitəsi, 5 iyul qərarının qəbul edilməsində olduğu kimi, onun reallaşdırılmasında da inzibati-amirlik üsullarına əl atdı. Zaqafqaziya Ölkə Komitəsinin 27 oktyabr 1922-ci il tarixli iclasında Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə 5 iyul qərarının həyata keçirilməsi təklif edildi, Karakozovun İcraiyyə Komitəsinin sədri təyin edilməsi, Şadunsun məsul işə göndərilməsi üçün Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə ezam edilməsi qərara alındı. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin 15 dekabr iclası Zaqafqaziya Ölkə Komitəsinin qərarını icra üçün qəbul etdi, Azərbaycan SSR Xalq Komissarları Soveti yanında Dağlıq Qarabağ işləri üzrə Mərkəzi Komissiya (Kirov, Mirzəbekyan, Karakozov) və 7 nəfərdən ibarət Komitə (1922, 15 dekabr - 1923, 24 iyul) təşkil edildi. Bütün bunlara baxmayaraq, Azərbaycana təzyiq yenə davam etdirildi. Dekabrın 22-də Zaqfederasiyanın İttifaq Soveti Dağlıq Qarabağa muxtariyyət verilməsinin sürətləndirilməsi haqqında xüsusi qərar qəbul etdi.

SSRİ-nin yaradılmasından sonra Zaqafqaziya Ölkə Komitəsinin tələbləri daha sərt şəkil aldı. 1923-cü ilin mayında Qarabağ Komitəsinin məruzəsi Zaqafqaziya Ölkə Komitəsi plenumunun gündəliyinə daxil edildi. İyunun 1-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyəti muxtariyyətin dekretləşdirilməsi və onun layihəsinin üç gün ərzində Mərkəzi Komitəyə təqdim olunması barədə qərar qəbul etdi. Bu qərar Zaqafqaziya Ölkə Komitəsinin təmin etdi. Zaqafqaziya Ölkə Komitəsinin plenumu iyunun 27-də Şaduns və Karakozovun məruzəsi əsasında Dağlıq Qarabağa bir ay müddətində muxtar vilayət statusu verilməsinin təmin olunmasını Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə həvalə etdi. İyulun 1-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin iclası Kirovun sədrliyilə Qarabağ haqqında məsələni dinləyərək 6 bənddən (a-e) ibarət qərar qəbul etdi. Rəyasət Heyətinin adından Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə Dağlıq Qarabağa muxtariyyət vermək, mərkəz Xankəndi olmaqla "Muxtar Qarabağ vilayəti" yaratmaq təklif olundu. Sərhədlərlə bağlı məsələləri müəyyən etmək üçün komissiya (Qarayev - sədr, üzvlər: Karakozov, Sviridov, İldırım və Bünyadzadə) yaradıldı və s.

1923-cü il iyulun 4-də Azərbaycan Sovetləri Mərkəzi İcraiyyə Komitəsi də eyni məzmunlu qərar qəbul etdi. Azərbaycan Sovetləri Mərkəzi İcraiyyə Komitəsi iyulun 7-də M.B.Qasımov (1879-1949) və Ə. M.Xanbudaqovun (1893-1937) imzası ilə "Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılması haqqında" dekret verildi. Dekret preambula, dörd bənd və müştərək komissiya yaradılması haqqında yekundan ibarətdir. Göründüyü kimi, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin qərarı ilə dekretin adı arasında fərq vardır, çünki Qarabağın aran və dağlıq hissəsini muxtar vilayət kimi bir yerdə ayırmaq əvəzinə, yalnız Dağlıq Qarabağı ayırmaq qərara alınmışdı. Dekretin "Muxtar Qarabağ" vilayəti deyil Muxtar Dağlıq Qarabağ Vilayəti adlandırılması diqqəti cəlb edir. Lakin sonralar o, Dağlıq Qarabağ Muxtar Vilayəti adlandırılır. Dekret ciddi hüquqi sənəddən daha çox, primitiv məzmunu ilə fərqlənir. Preambulada tarixi xronologiya pozulur, faktlar təhrif olunur, Dağlıq Qarabağa muxtariyyət verilməsi zərurəti kifayət qədər əsaslandırılmır.

Tarix İnstitutundan bildirilir ki, dekretin birinci bəndində hüquqi-siyasi təhrifə yol verilir. Azərbaycan torpaqlarında Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılması və onun Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasının təsdiqi əvəzinə, müxtəlif cür təfsir olunan ifadələr işlədilirdi. Üçüncü bənddə isə Sovetlər qurultayı çağırılanadək Müvəqqəti İnqilab Komitəsi yaradılır. Bu da, heç şübhəsiz, vilayətin erməni rəhbərliyinə daha geniş hüquqlar verirdi və s. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin 16 iyul (dekretdən 10 gün sonra!) tarixli iclasının qərarı ilə Şuşa şəhəri Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil edildi. Dağlıq Qarabağ Muxtar Vilayəti üçün quberniya icraiyyə komitələri haqqında 1923-cü il əsasnaməsi qəbul və tətbiq edildi. Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamə isə 26 noyabr 1924-cü ildə çap olundu. Beləliklə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ süni şəkildə aran və dağlıq hissələrinə parçalanmış və Azərbaycan rəhbərliyi Qarabağın dağlıq hissəsində sonradan məskunlaşmış ermənilərə muxtariyyət statusu verməyə məcbur edilmişdi. Özü də bu addım həmin hissədə - Dağlıq Qarabağda yaşayan azərbaycanlıların rəyi nəzərə alınmadan, onların hüquqları kobudcasına tapdalanaraq və müvafiq rəy sorğusu keçirilmədən atılmışdı. Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması və ona muxtariyyət verilməsi məsələsində Ermənistanın mövqeyi də maraq doğurur. Ermənistan ilk dövrdə məsələnin bu şəkildə həlli ilə razılaşmaq istəməmiş, 1921-ci il iyulun 16-da Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsi Qafqaz Bürosunun 5 iyul tarixli qərarının onu təmin etmədiyini bildirmiş və Dağlıq Qarabağa iddiasını davam etdirməyə başlamışdı. İş o yerə çatmışdı ki, Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi XII qurultayında (1923, 17-25 aprel) K.Radek Azərbaycanda erməni şovinizmindən (aprelin 23-də) bəhs etmişdi. XII qurultayda seçilmiş Mərkəzi Komitə üzvlərinin repressiyası da məlum faktdır. Ona görə də K.Radekin çıxışı ilə əlaqədar məsələlər də yenidən tədqiq olunmalıdır. Stalinin, eləcə də Kirovun timsalında güclü müdafiəyə malik olan ermənilər çox çəkmədən əsl niyyətlərini açıqladılar...

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**